AZƏRBAYCAN RESPUBLİKASININ
AUDİTORLAR PALATASI

"ELVI AUDIT" MMC
İCAZƏ № AT/186

THE CHAMBER OF AUDITORS
OF AZERBAIJAN REPUBLIC

" ELVI AUDIT " LLC
LİCENSE № AT/186

VÖEN 1702360181

Səbail rayonu, A.Quliyev küçəsi, 10, m. 4, Bakı, Azərbaycan +99450-353-30-62
Sabail district, A.Guliyev street, 10, apartment 4 Baku, Azerbaijan +99450-353-30-62

## MÜSTƏQİL AUDİTORUN HESABATI

**"A-QROUP SIĞORTA ŞİRKƏTİ" Açıq Səhmdar Cəmiyyətinin təsisçilərinə**

## AUDİTOR RƏYİ № Sw32HsJJWr

**Rəy: Müsbət Rəy**

Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilmiş 18 mart 2019-cu il tarixli AT/186 saylı İCAZƏ-yə əsasən "ELVI AUDIT" MMC (VÖEN: 1702360181) və "A-QROUP SIĞORTA ŞİRKƏTİ" ASC (VÖEN: 9900027621) (Bundan sonra - Sifarişçi) arasında bağlanılmış AB 41/21 saylı 27.10.2022-ci il tarixli müqaviləyə əsasən 2022-ci il üzrə təsərrüfat fəaliyyətinin auditi aparıldı.

"A-QROUP SIĞORTA ŞİRKƏTİ" Açıq Səhmdar Cəmiyyətinin (VÖEN: 9900027621) (bundan sonra Cəmiyyət) 31.12.2022-ci il tarixə olan dövr üzrə maliyyə vəziyyətinə dair hesabatından, məcmu gəlirlərə dair hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına qeydlərdən ibarət maliyyə hesabatlarının auditi aparıldı.

Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31.12.2022-ci il tarixə olan dövr üzrə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

**Rəy üçün əsaslar:**

Audit Beynəlxalq audit standartlarına (BAS) uyğun aparıld. Bu standartlar üzrə mənim məsuliyyətlərim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyiləm və mən digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və Cəmiyyətin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti:**

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetməyə məsul şəxslər Cəmiyyətin maliyyə hesabatlarının təqdim etmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti:**

Mənim məqsədim maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o, BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu

olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

Azərbaycan Respublikasının
Auditorlar Palatasının üzvü,
"ELVİ AUDİT" MMC-nin
Direktoru-Auditoru İsmayılov Elxan Əsgər oğlu

M.Y.

Azərbaycan Respublikasının
Auditorlar
Palatası tərəfindən verilmiş
İCAZƏ SA/429 № 07 may 2019-cu il
VÖEN: 1702360181

22 Fevral 2023-cü il
Azərbaycan Respublikası Bakı şəhəri,
E-mail:elviaudit@gmail.com
Səbail rayonu, A.Quliyev küçəsi, ev 10, m.4 Tel: (050) 353-30-62